# Cəbrayılda yeni məktəbin təməli qoyuldu

***Prezident İlham Əliyev Cəbrayıl rayonunun işğaldan azad olunduğu günün ildönümündə – oktyabrın 4-də bu rayona səfər etdi. Prezidenti qarşılayan rayon sakinləri arasında rayon təhsil şöbəsinin müdiri Zamiq Qurbanov da var idi.***

Söhbət zamanı Zamiq müəllim bildirdi ki, cənab Prezidentin Cəbrayıla budəfəki səfəri rayonumuzun mənfur düşmənin işğalından azad olunmasının ildönümü gününə təsadüf etmişdir.

Biz cəbrayıllılar bu səfərdən böyük qürur duyduq. Yaxşı bilirik ki, cənab Prezidentin getdiyi yerlərdə quruculuq, abadlıq başlayır. Cəbrayılda təməli qoyulan yeni sosial obyektlər bunu deməyə əsas verir. Görün, nə qədər yeni obyektlərin təməlqoyma və açılış mərasimləri oldu. “KamAZ” ASC ilə “Gəncə Avtomobil Zavodu” İstehsalat Birliyinin birgə servis mərkəzinin, “Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlqoyma mərasimləri, 110/35/10 kV-luq "Cəbrayıl" yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin hərbi hissə kompleksinin açılışı oldu. Dövlətimizin başçısı Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının, Mehdi Mehdizadə adına məktəb binasının, Cəbrayıl şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin, Cəbrayıl Memorial Kompleksinin və Cəbrayıl şəhərinin bərpasının təməlləri qoyuldu.

Biz təhsil işçiləri bir daha əmin olduq ki, tezliklə Cəbrayıl məktəbləri bərpa ediləcək və biz də öz doğma yurdumuza qayıdacağıq.

Zamiq müəllim Cəbrayıl rayon təhsilində baş verən dəyişikliklərdən də söhbət açdı. Bildirdi ki, rayon üzrə 41 ümumi təhsil məktəbi, o cümlədən, 39 tam orta, 2 ümumi orta və 1 Şahmat Uşaq Gənclər İdman Məktəbi fəaliyyət göstərir. Bu təhsil müəssisələrində hazırlıq qrupu və I–XI siniflərdə, ümumilikdə 9290 nəfərədək



şagird təhsil alır. Məktəblərimiz Azərbaycanın 34 rayonunda fəaliyyət göstərir. İşğal dövründə çətinliklərimiz çox olub. Amma təhsil işçilərimiz bu çətinliklərin öhdəsindən layiqincə gəliblər. Bir faktı vurğulamaq istərdim. Belə ki, builki qəbul imtahanlarında 21 məzunumuz 600-dən yuxarı bal toplamışdır. Hətta 693 bal toplayan məzunumuz da oldu. 2 nəfər məzunumuz bu il Prezident təqaüdü alacaq.

İki nəfər müəllimimiz 44 günlük Vətən müharibəsində iştirak etmiş, müxtəlif medallarla təltif olunmuşlar.

Ümumiyyətlə, cəbrayıllılar bu müharibədə böyük qəhrəmanlıqlar göstərmişlər. Rayon üzrə 23 şəhidimiz olmuşdur.

Həmsöhbətim onu da vurğuladı ki, Cəbrayıl işğaldan ilk azad edilmiş rayonumuzdur. Düşmən bu yerləri viran qoyub. Tarixi, mədəni və dini abidəlrimiz yerlə -yeksan edilib. Amma cənab Prezident buradakı çıxışında bir daha vurğuladı ki, Cəbrayıl tezliklə bərpa edilərək Azərbaycanın dilbər guşələrindən birinə çevriləcəkdir. Biz buna əminik. Tezliklə doğma Cəbrayılımıza qayıdıb, orada təhsil strukturunu bərpa edəcəyik.

***Qələmə aldı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 6 oktyabr.- S.13.